ŞİRXAN SƏLİMOV

# CÜMHURİYYƏT DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ AZƏRBAYCAN NEFTİ MƏSƏLƏSİ

302198

*(1918–1920-ci illər)*

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ KİTABXANA

Bakı - 2004

93/99
S 46

Elmi redaktor **Musa Qasımlı,**
*tarix elmləri doktoru, professor*

Rəyçilər **Pərvin Darabadi,**
*tarix elmləri doktoru, professor*

**Kamran İsmayılov,**
*tarix elmləri namizədi*

**Səlimov Ş.D.** Cümhuriyyət dövründə beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələsi (1918–1920-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2004, 168 s.

*Monoqrafiyada Azərbaycan və bir sıra ölkələrin mənbə və ədəbiyyatı əsasında Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yer, onun uğrunda aparılan mübarizə araşdırılmış, neftə dair ikitərəfli və San-Remo konfransında imzalanmış çoxtərəfli sənədlər təhlil edilmişdir.*

*Əsər diplomatiya tarixini, Azərbaycan neftinin beynəlxalq münasibətlərdə tutduğu yeri öyrənənlər üçün əhəmiyyətlidir.*

$S\frac{3271000000}{658(07)-085}85-2004$

ISBN-5-8025-0085-5

© Bakı Universiteti nəşriyyatı, 2004

## MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................... 4

**I FƏSİL.** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından birinci dünya müharibəsinin başa çatmasınadək olan dövrdə Bakı nefti uğrunda mübarizə .................... 27

**II FƏSİL.** Azərbaycan nefti məsələsi 1918-ci ilin sonlarından 1920-ci ilin aprelinədək olan dövrdə beynəlxalq münasibətlərdə .............................................. 97

**NƏTİCƏ** ........................................................... 145

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT** ........... 151

# GİRİŞ

Müasir dövrdə Azərbaycan nefti beynəlxalq münasibətlərə, xüsusən regionda gedən proseslərə ciddi təsir edir. Demək olar ki, tarixdə ilk dəfə olaraq Azərbaycan xalqının ümummilli lideri, 1993-2003-cü illərdə Azərbaycan Respublikasının prezidenti işləmiş Heydər Əliyevin bilavasitə səyləri nəticəsində Azərbaycan nefti dövlətlərin qarşıdurması deyil, əməkdaşlığı amilinə, dövlət müstəqilliyinin möhkəmləndirilməsinin şərtlərindən birinə çevrilmişdir.

Tarixən Azərbaycan neftinə böyük maraq olmuşdur. 1918-ci il mayın 28-də Azərbaycan dövlətçiliyi respublika formasında elan edildikdən sonra da neft amili beynəlxalq münasibətlərdə xüsusi yer tutdu. Cümhuriyyət dövründə Azərbaycan nefti məsələsinin beynəlxalq münasibətlərdə tutduğu yerin araşdırılması ciddi elmi və siyasi aktuallıq kəsb edir.

1918-ci ilin yayından başlayaraq Osmanlı imperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında imzalanan Batum müqaviləsi, Bakı-Batum arasında neft ixracına dair Osmanlı-Azərbaycan-Gürcüstan müqaviləsi, ABŞ-ın Azərbaycan neftinə xüsusi maraq göstərməsi, ingilislərin Azərbaycana dəvət edilmələri və Bakı neftinə can atmaları, Azərbaycan və Osmanlı qoşunlarının Bakını azad etmələrinə mane olmaq üçün rus-alman danışıqları və Brest sülh müqaviləsinə əlavə protokolun imzalanması, bu məsələdə neft amili, Bakı nefti məsələsində Osmanlı imperiyası ilə Almaniya arasında mövcud olan ixtilaflar və b. məsələlərin öyrənilməsi də aktualdır. Qeyd etmək lazımdır ki, 1918-ci ilin sentyabrında Bakının azad edilməsində neft amili mühüm rol oynadı. Osmanlı imperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında neftin nəqlinə dair imzalanan sənədlər, Almaniyanın neftdə pay almaq üçün Azərbaycanla yaxınlaşmaq cəhdləri, rus, alman və türk diplomatları arasında Bakı neftinə dair danışıqların və s. məsələlərin araşdırılmasının mühüm elmi əhəmiyyəti vardır.

Osmanlı imperiyasının məğlub edilməsindən sonra beynəlxalq münasibətlərdə Bakı nefti barədə mövqelərdə əsaslı dəyişiklik əmələ gəldi. Mudros barışığının imzalanması Azərbaycan nefti məsələsinə ciddi təsir göstərdi. Antanta dövlətləri Bakı nefti uğrunda mübarizəni gücləndirdilər. 1918-1920-ci illərdə Azərbaycan neftinin nəqlinə dair bir sıra ikitərəfli sənədlərin imzalanması, neft şirkətlərinin Bakıya gəlməsi ilə bağlı məsələ aktuallaşdı. Ümumiyyətlə, Cümhuriyyət dövründə Azərbaycan neftinin beynəlxalq münasibətlərdə oynadığı rolun öyrənilməsi əhəmiyyətlidir.

Lakin indiyədək belə bir mövzuda ayrıca elmi-tədqiqat işi, monoqrafiya yazılmamışdır. Bununla belə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yerə dair bəzi əsərlər də maraqlı fakt və materiallara rast gəlinir. Cümhuriyyət dövrü və mühacirət xadimlərindən M.Mehdizadənin[1], H.Baykaranın[2] və b. əsərlərində Azərbaycan neftinin beynəlxalq münasibətlərdə oynadığı rola toxunulmuşdur. A.K.Hervalın məqaləsi[3] Almaniyanın hərbi-strateji planlarına, xüsusən Azərbaycan neftinə yiyələnmək cəhdlərinə həsr edilmişdir. Müəllifin fikrincə, Almaniyanın Azərbaycanda əsas niyyəti Bakı neftinə yiyələnmək olmuşdur.

İ.A.Hüseynovun məqaləsi[4] 1918-ci ildə ingilislərin Bakını tutması planlarından bəhs edir. Müəllif Bakıya ingilislərin hücumunun əsas məqsədini neftə sahib olmaq, Xəzərə nəzarət etmək və Mərkəzi Asiyaya çıxmaq istəkləri ilə əlaqələndirir.

---

[1] Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı, Azərnəşr, 1994.

[2] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992.

[3] Герваль А.К. Крах военно-стратегических планов Кайзеровской Германии в первой мировой войне 1914-1918 гг. // Тезисы докладов научной сессии посвященной XXIII годовщине Советского Азербайджана. 24-27 апреля 1943 г. Баку, изд. АГУ, 1943, с.20.

[4] Гусейнов И.А. Баку в захватнических планах англичан в 1918 г. // Труды Азербайджанского филиала ИМЭЛ при ЦК ВКП (б). XIII. Баку, 1949, с.54-62.

E.A.Tokarjevskinin əsərləri[5,6] 1918-ci ildə Bakı bolşeviklərinin Azərbaycanda türk-alman və ingilis müdaxiləçilərinə qarşı mübarizəsi məsələlərinə həsr olunmuşdur. Müəllif bu dövlətlərin neftə sahib olmaq uğrunda apardıqları gərgin mübarizəyə də toxunur.

Z.İbrahimovun kitabında[7] neftlə bağlı problemlərə də münasibət bildirilir.

Qeyd etmək lazımdır ki, XX əsrin 80-ci illərinin sonlarından başlayaraq sovet cəmiyyətində gedən siyasi yumşalma prosesində tariximizin qaranlıq və təhrif edilmiş tərəflərinin araşdırılmasına maraq gücləndi. Müxtəlif problemlərə həsr edilmiş yeni-yeni əsərlər yazılmağa başlandı. Bu əsərlərdə tarixi keçmişin obyektiv yazılması istiqamətində çoxlu işlər görüldü. Bununla belə, sovet dövründə hakim olan marksist-leninçi ideoloji prinsiplərə alternativ olaraq yazılmış bəzi kitablarda populizmə və səthiliyə yol verilirdi. Bu da tarixi həqiqətlərin üzə çıxarılmasına və tarix elminin inkişafına deyil, daha çox iki dünyabaxışın yersiz mübahisələrinə xidmət edirdi. Qeyd etmək lazımdır ki, tarixşünaslığımızda indiyədək 1918-1920-ci illərdə Azərbaycan neftinin beynəlxalq münasibətlərdə oynadığı rola həsr edilmiş ayrıca tədqiqat işi mövcud deyildir.

A.Balayevin kitablarında[8,9] Osmanlı imperiyasının Azərbaycan neftinə yiyələnmək istəklərinə dair ayrı-ayrı faktlar verilmiş-

---

[5] Токаржевский Е.А. Бакинские большевики организаторы борьбы против турецко-германских-английских интервентов в Азербайджане в 1918 году. Баку, ИМЭЛ, 1949.

[6] Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, Элм, 1957.

[7] İbrahimov Z. İngilis-amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi. Bakı, Uşaqgəncnəşr, 1950.

[8] Балаев А. Азербайджанское национально-демократическое движение. 1917-1920 гг. Баку, Элм, 1990, с.3-63.

[9] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку, Элм, 1998.

dir. Bu monoqrafiyalar 1917-1918-ci illərə aid ümumi məsələləri öyrənmək baxımından əhəmiyyətlidir.

P.Darabadinin kitabında XX əsrin əvvəllərində Azərbaycanın siyasi tarixinin hərbi problemləri öyrənilmişdir[10]. Kitabda geniş sənədli mənbələr əsasında 1900-1920-ci illərdə Azərbaycanda baş vermiş hərbi-siyasi hadisələr, bolşeviklərin hakimiyyətə gəlməsi və b. məsələlər araşdırılmışdır. Müəllif yazır ki, 1920-ci ilin yazında bolşevik ordusunun Qafqaza çıxması İngiltərənin Yaxın və Orta Şərqdə, xüsusən İraq, İran və Azərbaycan kimi zəngin neft mənbələrində mənafeləri üçün təhlükə yaradırdı[11].

C.Həsənovun əsərində[12] araşdırılan problemlərlə əlaqədar ayrı-ayrı fakt və materiallara rast gəlinir. Ancaq müəllifin məqsədi Azərbaycan neftinin beynəlxalq münasibətlərdə tutduğu yeri araşdırmaq deyil, 1918-1920-ci illərdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu yeri tədqiq etməkdir.

N.Nəsibzadənin monoqrafiyasında[13] fevral inqilabından sonra Azərbaycanda ictimai-siyasi vəziyyət, Azərbaycan və Osmanlı nümayəndələri arasında aparılan danışıqlar, hərbi, siyasi və b. əlaqələr təhlil edilmişdir. Bununla belə, əsərdə 1918-1920-ci illərdə Bakı nefti uğrunda mübarizəyə dair bəzi faktlar da verilmişdir. Onun başqa bir əsərində Azərbaycan neftinin müasir dövrdə yeridilən siyasətə təsiri öyrənilsə də, XIX-XX əsrin əvvəllərində neftlə bağlı məsələlərə qısa nəzər yetirilmişdir[14].

---

[10] Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, Элм, 1991.

[11] Yenə orada, s.153.

[12] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı, Azərnəşr, 1993.

[13] Nəsibzadə N. L. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, Ay-Ulduz, 1996.

[14] Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Məqalələr toplusu. Bakı, Xəzər Universiteti nəşriyyatı, 2000.

N.Ağamalıyeva, K.İsmayılov və E.Hacıbabayevin əsərlərində problemə dair faktik materiallara və təhlilə də yer ayrılmışdır. Burada Cümhuriyyət dövründə yürüdülən iqtisadi siyasət araşdırılmış, neft sahəsində həyata keçirilən tədbirlər, Rusiyanın Azərbaycanı işğal etməsində neft amilinin rolu göstərilmişdir[15,16,17].

M.Qasımlının (Qasımov) əsərlərində[18,19] birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti araşdırılmış, regionda aparılan hərbi əməliyyatlarda neftin aparıcı rol oynadığı göstərilmişdir. Əsərlərdə Cümhuriyyətin ilk ilində neftə dair məsələlərə də toxunulmuşdur.

Monoqrafiya müəllifinin məqalələrində 1914-1918-ci illərdə beynəlxalq münasibətlərdə Azərbaycan neftinin tutduğu yer öyrənilmişdir[20].

Problem araşdırılarkən rus və sovet tarixçilərinin əsərlərinə də diqqət yetirilmişdir. E.A.Qodzişevskinin kitabında dünya

---

[15] Ağamalıyeva N., İsmayılov K., Hacıbabayev E. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti // Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1998, s.210-243.

[16] Ağamalıyeva N. Bakıda aprel çevrilişi və 1920-ci ildə Azərbaycanın RSFSR XI ordusu tərəfindən işğal olunması // Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1998, s.274-303.

[17] Azərbaycan Cümhuriyyəti. Məsul redaktor N.Ağamalıyeva. Bakı, Elm, 1998.

[18] Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. II hissə (1917-ci il noyabr - 1918-ci il noyabr). Bakı, Adiloğlu nəşriyyatı, 2001.

[19] Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. III hissə (Sənədlər, materiallar, xəritələr, şəkillər). Bakı, Adiloğlu nəşriyyatı, 2004.

[20] Səlimov Ş. Бакинская нефть в международных отношениях в 1918-1920 гг. // Вопросы гуманитарных наук. М., 2004, № 6(15), с41-44

bazarında Rusiya neftinin yeri öyrənilmişdir[21]. Kitabda neftin dünya siyasətində oynadığı rol, dünyada və Rusiyada 1914-cü ilədək neft çıxarılması, Rusiyanın müharibəyədək neft ixracı, müharibədən sonra dünya neft sənayesi, neft məhsullarının idxalı, dünya bazarında neft məhsullarının qiyməti, müharibədən sonra Rusiya neft sənayesinin vəziyyəti və xarici bazarlarda neft məhsullarının satışı məsələləri araşdırılmışdır. Müəllif yazır ki, cəbhənin Bakının yaxınlığından keçməsi neft sənayesinin inkişafına mənfi təsir etmişdi, 1918-ci il sentyabrın 15-də bombardmandan sonra Bakı türklər tərəfindən alınmışdı[22].

Q.Daşevskinin məqaləsində Yaxın Şərqdə neft uğrunda mübarizə məsələləri öyrənilmişdir[23].

E.V.Tarlenin monoqrafiyasında[24] Vyana konqresindən Versal sülhünə qədərki dövrdə Avropada baş verən hadisələr öyrənilmişdir. Müəllif həmçinin birinci dünya müharibəsi illərində yeridilən beynəlxalq siyasət, o cümlədən neft uğrunda aparılan mübarizə məsələlərini şərh etmişdir.

«İstoriya diplomatii» kitabının ikinci cildində Brest sülh müqaviləsinə əlavə olan 1918-ci il 27 avqust tarixli protokol və digər məsələlər verilmişdir[25].

S.V.Lavrovun məqaləsində 1917-1921-ci illərdə İngiltərənin Qafqaz və Orta Asiya siyasəti öyrənilmişdir[26].

---

[21] Годзишевский Э.А. Русская нефть на мировом рынке. М., изд. ВСНХ, 1924.

[22] Yenə orada, s.45.

[23] Дашевский Г. Нефтяной империализм на Ближнем Востоке // Журн. «Новый Восток», 1924, №6.

[24] Тарле Е. В. Европа от Венского конгресса до Версальского мира 1918-1919 гг. Петроград, Книга-изадательство Сеятель Е. В. Высоцкого, 1924.

[25] История дипломатии. Т.II. Под ред. акад. В.П.Потемкина. М., Л., Госиздат, 1945.

[26] Лавров С.В. Политика Англии на Кавказе и в Средней Азии в 1917-1921 годах // Журн. «Вопросы истории», 1975, №5, с.78-92.

Monoqrafiya yazılarkən bir sıra xarici ölkələrin tarixçilərinin əsərləri də öyrənilmişdir. Türkiyə tarixçisi Kamuran Gürünün əsərində[27] fevral inqilabından sonra rus-türk əlaqələri, 1917-ci ilin dekabrında Ərzurum barışığı, Trabzon danışıqları, Batum konfransı, Azərbaycan və Dağıstanın Osmanlı hökumətindən yardım istəmələri, Bakının azad edilməsi, şəhərin azad edilməsinə dair bolşevik hökuməti ultimatumunun türklər tərəfindən saya alınmaması, türklərin yardımı, Mudros barışığı imzalandıqdan sonra Osmanlı imperiyasının Azərbaycana münasibətdə yeritdiyi siyasəti, böyük dövlətlərin neftə olan maraqları və digər məsələlər araşdırmışdır. Müəllifin "bu arada Almaniyanın öz müttəfiqi türklərin Bakı neftini əllərinə keçirməmələri üçün hər çarəyə baş vurduğu, hətta iş ermənilərə yardıma qədər doğurduğu da o tarixdə məlumdu" kimi yazması tarixi gerçəkliyi əks etdirir[28]. Müəllif yazır ki, bu məsələdə almanlara hətta Bakı neftinin dörddə birinin verilməsi şərti ilə türklərin Bakıya buraxılmaması təklifi və Brest-Litovsk sülh müqaliyəsinə əlavə imzalanmış rus-alman protokolunun təşəbbüsü bolşeviklərdən gəlmişdir.

Hikmət Özdəmirin kitabında[29] Osmanlı imperiyasının Qafqaz siyasətindən danışan müəllif qeyd edir ki, məğlubiyyət və inqilab Rusiya imperiyasını uçurumun kənarına gətirdi, bir çox əyalətlər, o cümlədən Azərbaycan, əldən çıxdı. Bu isə rus bolşeviklərininə xeyir deyildi. Ona görə də bolşeviklər Azərbaycanı əldən buraxmamaq, Bakı neftinə sahib olmaq üçün hərəkətə keçdilər[30].

İlbər Ortaylının məqaləsi[31] Qafqazda türk-alman münasibət-

---

[27] Kamuran Gürün. Türk-Sovyet ilişkileri (1920-1953). Ankara, Türk Tarih Kurumu Basımevi, 1991.

[28] Yenə orada, s. 5.

[29] Ozdemir H. Türkiye Cumhuriyeti. Istanbul Uiz, Yayınçılık, 1995.

[30] Yenə orada, s. 20.

[31] Ortaylı I. Osmanlı imperatorlugu ve alman diplomasisi: "Drang nach Osten" // Çagdaş Türk Diplomasisi: 200 yıllık sürec. Ankara, 15-17 Ekim 1997. Sempozyuma Sunulan Tebligler. Ankara, Türk Tarih Kurumu, 1999, s. 215-221.

lərinin bütün cəhətlərini öyrənmək baxımından diqqətəlayiqdir. Onun fikrincə, Qafqazda Osmanlı imperiyası ilə Almaniya arasında ixtilaflar əsasən Bakı neftinə yiyələnmək üstündə baş vermişdir.

Qafqazda, xüsusən Azərbaycanda osmanlı-alman rəqabətinə dair ingilis mənbələri türk tarixçisi Kaya Tuncer Çağlayanın məqaləsində[32] araşdırılmışdır. Məqalədə göstərilir ki, Bakı nefti döyüşən dövlətlər, o cümlədən müttəfiqlər arasında da, münasibətləri daha da kəskinləşdirdi.

Nəsir Yücəərin əsəri[33] türk ordusunun Azərbaycan və Dağıstan əməliyyatlarının mahiyyətini öyrənmək baxımından əhəmiyyət kəsb edir. Müəllif 1917-ci il fevral inqilabından başlayaraq Osmanlı imperiyasının həmin ərazilərdə apardıqğı hərbi əməliyyatları öyrənmişdir. Kitabda siyasi şərait, cəbhələrdə vəziyyət, Brest sülhü, ondan sonra hadisələrin inkişafı, Qafqaz İslam Ordusu, birinci dünya müharibəsinin sonuna yaxın bəzi dövlətlərin Azərbaycana qarşı yeritdikləri siyasət, Qafqaz ordusunun Azərbaycan əməliyyatı, Bakının azad edilməsi, Azərbaycanın azad edilməsindən sonra Qafqaz İslam Ordusunun fəaliyyəti, türk birliklərinin Dağıstan və Azərbaycandan çıxarılması və s. məsələlər öyrənilmişdir. Əsərdə hərbi əməliyyatların aparılmasında neft amilinin roluna da toxunulmuşdur.

Problem araşdırılarkən ABŞ müəlliflərinin də əsərlərinə diqqət yetirilmişdir. F.Kazımzadənin əsəri bolşevik işğalının mahiyyətini, Azərbaycan-Rusiya münasibətlərini, Bakı nefti uğrunda mübarizəni öyrənmək baxımından əhəmiyyətlidir[34].

---

[32] Çağlayan K.T. Ingilis Belgelerine göre Kafkasyada Osmanlı - Alman Rekabeti // XII Türk Tarih Kongresi. 4-8 Ekim 1999. Bildiri Ozetleri. Ankara, Türk Tarih Kurumu, 1999, s. 54.

[33] Yüceer N. Birinci dünya müharibəsində Osmanlı ordusunun Azərbaycan və Dağıstan əməliyyatı. Azərbaycan və Dağıstanın öz müstəqilliklərini qazanmaları. 1918. Bakı, Qafqaz Universiteti, 1999.

[34] Kazemzadeh F. The Strugge for Transcaucasus (1917-1921). New-York, Philosophical Library, Oxford, George Ronald, 1951.

Müəllif sovet Rusiyasının Qafqazı işğal etməsini çar Rusiyasının işğalları ilə müqayisə edərək göstərir ki, «Qırmızı ordu 1920-1921-ci illərdə Cənubi Qafqaz respublikalarını işğal etdi», «Cənubi Qafqaz Moskvanın müstəmləkəsi kimi idarə olunurdu». F.Kazımzadə bolşeviklərin Azərbaycana yiyələnmələrində neft amilinin mühüm rol oynadığını da xüsusi qabartmışdır.

Harri Hovardın əsərində[35] birinci dünya müharibəsində Qafqaz cəbhəsində hərbi əməliyyatların başlanması, gedişi, ingilis, fransız və rus hökumətlərinin Osmanlı imperiyasına dair planları, İranın nüfuz dairəsinə bölüşdürülməsinə dair ingilis-rus sazişi, onun Osmanlı maraqları ilə toqquşması və Qafqazda rus-türk ziddiyyətləri, fevral inqilabından sonra yaranmış siyasi vəziyyət, ABŞ mövqelərinin möhkəmlənməsi, Osmanlı imperiyasına qarşı mübarizədə erməni amilindən istifadə edilməsi öyrənilmişdir. Əsərdə Paris sülh konfransında Qafqaz məsələlərinin müzakirəsinə də yer ayrılmışdır. Müəllif böyük dövlətlərin Yaxın və Orta Şərq siyasətində neft amilinin rolunu xüsusi olaraq vurğulamışdır.

T.Svyatoxovskinin monoqrafiyalarında[36] böyük dövlətlərin Azərbaycan neftinə yiyələnmək uğrunda apardıqları mübarizə ilə bağlı fakt və materiallara da rast gəlmək mümkündür.

R.E.Povaskinin 1917-1991-ci illərdə Birləşmiş Ştatlarla Sovet dövləti arasında münasibətlərdən bəhs edən əsərində [37] Transqafqaz və Şimali Qafqaz regionlarında ingilis, fransız, amerikan

---

35 Howard Harry H. Turkey, the Straits and U. S. Policy. Baltimore and London, The Yon Hopkins University Press, 1974.

36 Swietoshowski T. Musluman Cemaatten Ulusal Kimliqe Rus Azerbaycanı 1905-1920. Çeviren Nuray Mert. Istanbul, Bağlam yayınları, 1988; Yenə onun. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, Xəzər Universiteti nəşr, 2000.

37 Ronald E. Powarski. The Cold War. The United States and the Sowiet Union 1917-1991. New York, Oxford, Oxford University Press, 1998.

maraqları, Bakı nefti uğrunda mübarizə və Brest sülh müqaviləsinə ABŞ-ın münasibəti məsələləri araşdırılmışdır.

Monoqrafiya yazılarkən neft sənayesi və beynəlxalq iqtisadi münasibətlər üzrə tanınmış mütəxəssis, amerikalı müəllif Deniel Erginin kitabından[38] istifadə olunmuşdur. Əsərdə birinci dünya müharibəsi dünya miqyasında neft uğrunda mübarizə kimi təqdim edilir. Müəllif birinci dünya müharibəsində Bakı neftinin rolunu və onun uğrunda aparılan mübarizəni də şərh etmişdir. Müəllif Bakıdakı uğursuzluğun Almaniyaya «ciddi zərbə» olmasını göstərərək qeyd etmişdir[39] ki, neft müharibənin qanı idisə, sonradan o, bütün dünyanın qanına çevrildi. Müəllif müharibənin son mərhələsində Bakı nefti uğrunda aparılan mübarizənin kəskinləşməsinin səbəblərini də araşdırmışdır.

Ümumiyyətlə, ABŞ tarixçilərinin əsərlərinin nəzərdən keçirilməsi Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yerin öyrənilməsinin aktual olduğunu göstərir.

Fransız müəllifi F.Delezi əsərində San-Remo konfransında neft məsələsinin müzakirəsinə diqqət yetirərək bunu dövlətlərin düşdüyü vəziyyətlə əlaqələndirmişdir[40].

Başqa bir fransız müəllifi P.Lespanol de lya Tramerinin rus dilinə çevrilmiş kitabında dünya neft ehtiyatları və onun əhəmiyyəti, trestlər arasında mübarizə, dövlətlər arasında neft uğrunda gedən mübarizə işıqlandırılmışdır[41]. Müəllif yazır ki, neftin tarixi xeyli qədimdir, Bibliyada onun haqqında məlumat verilir. Bakı mənbələri xristianlıqdan xeyli əvvəl məşhur olmuşdur. Onun fikrincə, məhz Abşeron yarımadasında atəşpərəstlik yaranmışdır; atəşpərəstliyə görə yerin altından çıxan od və isti qaz dünyanın

---

[38] Эргин Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть (Пер. с англ.). М., Деново, 1999.

[39] Yenə orada, s. 900.

[40] Делези Ф. Нефть. Перевод с французского И.Маркельс и Х.Рыт. М., Новая Москва, 1923.

[41] Лeспанол де ля Трамери П. Мировая борьба за нефти. Пер. с франц. Л.Тумермана. М., изд. Военный вестник, 1925.

sonunadək yanmalıdır. Həmin görüşlərə görə, bu əbədi odlar 3.000 il əvvəl antik dünyaya məlum idi[42].

Fransız generalı Luazonun kitabı[43] müharibənin son ilində Almaniyanın hərbi strategiyasının araşdırılmasına həsr edilmişdir. Kitabda qeyd edilir ki, Almaniyanın siyasətində neft mənbələrinə sahib olmaq başlıca məqsədlərdən biri idi.

Problem geniş mənbə bazası əsasında öyrənilmişdir. Monoqrafiyanın yazılmasında Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA) fondlarından da geniş istifadə olunmuşdur. Bu fondlarda saxlanılan sənədlər Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yerin öyrənilməsi üçün əhəmiyyətlidir. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Diplomatik şöbəsinin materiallarından, Bakıya ingilis-amerikan qüvvələrinin gəlməsinə dair Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin fondunda saxlanılan bəyanatından[44]; Türkiyə hökuməti ilə sülh haqqında diplomatik danışıqlar aparan Cənubi Qafqaz seymi nümayəndə heyətinin məruzəsindən[45]; Azərbaycan sülh nümayəndə heyətinin sədri M.Rəsulzadənin İstanbuldakı Almaniya səfiri Valdburqa neftin müəyyən hissəsinin Almaniyaya verilməsi müqabilində Bakının Rusiyaya birləşdirilməsinə etiraz edən notasından[46]; Osmanlı və Azərbaycan hökumətləri arasında imzalanan müxtəlif sazişlərə dair yazışmalardan[47]; Almaniya ilə Rusiya arasında Brest-Litovsk danışıqları haqqında Azərbaycan hökumətinin Qafqazdakı alman nümayəndə heyəti və İstanbuldakı alman konsulu ilə yazışmalarından[48]; Azərbaycanın Gürcüstan Respublikası

---

[42] Yenə orada, s.17.

[43] Генерал Луазо. Германская стратегия в 1918 году. Пер. с франц. М., Госвоениздат, 1936.

[44] ARDA, f. 970, siy. 1, iş 2.

[45] ARDA, f. 970, siy. 1, iş 3.

[46] ARDA, f. 970, siy. 1, iş 8.

[47] ARDA, f. 970, siy. 1, iş 10.

[48] ARDA, f. 970, siy. 1, iş 16.

hökuməti yanındakı nümayəndəliyinin fondunda saxlanılan Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Almaniya və Avstriya-Macarıstan nümayəndəlikləri arasında aparılan yazışmalardan[49]; neft daşınması, dəmiryol haqqında Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin Osmanlı hökuməti ilə imzaladıqları müqavilədən[50]; Azərbaycan hökumətinin xəbərlərindən[51]; Osmanlı və Azərbaycan hökumətləri arasında dəmiryoluna dair imzalanan əlavə müqavilədən[52]; Azərbaycan Xalq Cümhuriyyətinin səlahiyyətli nümayəndəsinin türk nazirləri ilə görüşü barədə qeydlərindən[53] istifadə edilmişdir. Bu fondlarda saxlanılan müqavilə, saziş, göstəriş, məxfi yazışmalar və s. neftin dünya siyasətində tutduğu yeri araşdırmaqda ilkin mənbə kimi qiymətlidir.

Monoqrafiya yazılarkən Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin (ARSPİHDA) fondlarının materiallarından da geniş şəkildə istifadə edilmişdir. Almaniyanın Rusiya ilə sülh bağlamağa hazır olması haqqında sənəddən[54]; 1918-ci ildə İstanbula gedən sülh nümayəndə heyətin sədrinin yazışmalarından[55]; Azərbaycandan İstanbula 1918-ci ildə getmiş nümayəndə heyətinin yazışmalarından[56]; Osmanlı imperiyası ilə Azərbaycan hökumətinin 1918-ci ildə bağladığı müqavilələrdən[57]; Azərbaycan hökumətinin İstanbuldakı Maliyyə Komissiyasının qeydlərindən[58]; Almaniya və Azərbaycan hökumət-

---

[49] ARDA, f. 970, siy. 1, iş 20.
[50] ARDA, f. 894, siy. 10, iş 44.
[51] ARDA, f. 894, siy. 10, iş 45.
[52] ARDA, f. 894, siy. 10, iş 47.
[53] ARDA, f. 894, siy. 10, iş 150, 151.
[54] ARSPİHDA, f. 276, siy. 7, iş 201, qutu 4.
[55] ARSPİHDA, f. 277, siy. 2, bağlama 1, iş 7.
[56] ARSPİHDA, f. 277, siy. 2, bağlama 1, iş 8.
[57] ARSPİHDA, f. 277, siy. 2, bağlama 1, iş 9.
[58] ARSPİHDA, f. 277, siy. 2, iş 21, qutu 2.

ləri arasında imzalanmalı olan müqavilənin layihəsindən[59]; Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin ingilis komandanlığı haqqındakı materiallarından[60]; Rusiya Kommunist (bolşevik) Partiyası Bakı Komitəsinin 1918-ci ilin iyulunda Bakıda siyasi və hərbi vəziyyətə dair vərəqələrindən[61]; Bakı Xalq Komissarları Sovetinin Biçeraxovun hərbi dəstəsi, neft daşınması və cəbhədə vəziyyət barədə V.İ.Leninə vurduğu teleqramdan[62]; Cənubi Azərbaycanda ingilis ordularının komandanı, general-mayor Tomsonun Bakının ingilis orduları tərəfindən tutulmasına dair müraciətindən[63]; general-mayor Tomsonun Bakıda hərbi vəziyyət elan edilməsi barədə sərəncamından[64] və b. istifadə edilmişdir.

Neft sənayesində tətillərin səbəbləri və onların aradan qaldırılmasına dair həmin arxivdə saxlanılan sənədlərdən[65,66], şirkətlərdə olan neft və mazut ehtiyatlarına dair materiallardan[67], Bakı neft sənayeçiləri ittifaqının sənədlərindən[68], ingilis vətəndaşlarının Bakıdakı neft məhsullarının daşınmasına dair yazışmalarından[69]; Azərbaycan hökuməti ilə Osmanlı imperiyası nümayəndələrinin imzaladıqları Bakı-Batum kerosin boru kəmərinə

---

59 ARSPİHDA, f. 277, siy. 2, iş 6.
60 ARSPİHDA, f. 277, siy. 2, bağlama 1, iş 18.
61 ARSPİHDA, f. 276, siy. 1, bağlama 3, iş 173; siy. 1, bağlama 33, iş 173.
62 ARSPİHDA, f. 5, siy. 1, iş 31, iş 256, qutu 1.
63 ARSPİHDA, f. 276, siy. 7, iş 258, qutu 4.
64 ARSPİHDA, f. 276, siy. 7, iş 259, qutu 4.
65 ARSPİHDA, f. 276, siy. 3, iş 28.
66 ARSPİHDA, f. 276, siy. 3, iş 53.
67 ARSPİHDA, f. 276, siy. 3, iş 32.
68 ARSPİHDA, f. 276, siy. 3, iş 42.
69 ARSPİHDA, f. 276, siy. 3, iş 71.

dair müqavilədən[70]; Bakı neft sənayesində xarici kapitalın əhəmiyyətindən bəhs edən sənəddən[71] geniş istifadə olunmuşdur.

"Azərbaycan arxivi" jurnalında çap edilmiş və 1918-1920-ci illərdə Azərbaycana xarici müdaxilə tarixinə aid olan sənəd və materiallardan da tədqiqat işində istifadə edilmişdir[72]. Burada gətirilən rəsmi arxiv sənədləri Almaniya, Böyük Britaniya və Osmanlı dövlətlərinin Azərbaycana münasibətdə yeritdikləri siyasəti öyrənməyə imkan verir.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibətilə çapdan çıxmış xarici siyasətə dair sənədlər və materiallar toplusunda[73] Azərbaycanın xarici ölkələrlə münasibətlərinə, o cümlədən, regionda mənafeləri olan dövlətlərin Bakı neftinə maraqlarına aid xeyli sənəd və materiallar vardır.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fərman və sərəncamlarının toplandığı külliyatda[74] verilmiş, Azərbaycan dövlətinin xarici siyasətinə, böyük dövlətlərlə münasibətlərinə və neftə dair bir sıra sənəd və materiallardan da mövcud işin yazılmasında istifadə olunmuşdur.

30258

Azərbaycanın görkəmli dövlət xadimlərinin əsərləri də problemi öyrənməkdə əhəmiyyətli mənbədir. Görkəmli dövlət xadimi, diplomat Ə.Topçubaşovun 1918-1919-cu illərdə İstanbulda müxtəlif dövlətlərin səfirləri və Osmanlı imperiyasının dövlət

---

[70] ARSPİHDA, f. 277, siy. 2, iş 17.

[71] ARSPİHDA, f. 276, siy. 8, iş 367.

[72] «Azərbaycan arxivi» jurn., 1988, №1-2.

[73] Азербайджанская Демократическая Республика. Внешняя политика (Документы и материалы). Б., изд. Азербайджан, 1998.

[74] Собрание узаконений и распоряжений правительства Азербайджанской Республики, 1919, №1.

SUMQAYIT

xadimləri ilə apardığı danışıqların stenoqramı[75] müharibənin başa çatmasına bir neçə ay qalmış Böyük Britaniya, Rusiya, Osmanlı imperiyasının, Fransa və İranın Bakı neftinə olan maraqlarını və Azərbaycan siyasətini öyrənmək üçün əhəmiyyətlidir.

Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədri və xarici işlər naziri Fətəli xan Xoyskinin həyat və fəaliyyətindən bəhs edən kitabda[76] verilmiş sənəd və materiallar problemi öyrənmək baxımından qiymətlidir. Burada Osmanlı imperiyasının Azərbaycanda iqtisadi maraqlarına dair də müəyyən sənədlər vardır.

M.Rəsulzadənin əsərləri[77,78] Bakı neftinin dünya siyasətində tutduğu yeri öyrənmək baxımından qiymətlidir. "Azərbaycan Cümhuriyyəti" kitabı bizi maraqlandıran problemi araşdırmaq üçün dəyərli mənbə hesab edilməlidir. Kitabda Azərbaycanın müstəqilliyi ideyası, ona münasibətdə çar Rusiyasının, müvəqqəti hökumətin, bolşevik Rusiyasının mahiyyətcə bir-birindən fərqlənməyən siyasətləri, Osmanlı imperiyasının məqsədləri və köməyi, Mudros barışığının Azərbaycan və Cənubi Qafqaz üçün nəticələri verilmişdir.

Ümummilli öndər H.Ə.Əliyevin əsərləri[79,80] neftlə bağlı

---

[75] Дипломатические беседы А.А.Топчибашева в Станбуле (Записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг. Баку, Эргюнь, 1994.

[76] Fətəli xan Xoyski. Həyatı və fəaliyyəti (sənəd və materiallar). B., Azərbaycan nəşriyyatı, 1998.

[77] Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990, s.25-46.

[78] Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı, Sabah, 1994.

[79] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, Azərnəşr, 1997; II kitab. Bakı, Azərnəşr, 1997; III kitab. Bakı, Azərnəşr, 1997; IV kitab. Bakı, Azərnəşr, 1997; VI kitab. Bakı, Azərnəşr, 1998; VII kitab. Bakı, Azərnəşr, 1998; VIII kitab. Bakı, Azərnəşr, 1998; IX kitab. Bakı, Azərnəşr, 1998; X kitab. Bakı, Azərnəşr, 2002; XI kitab. Bakı, Azərnəşr, 2003.

məsələlərin araşdırılması üçün mühüm metodoloji mənbə hesab edilməlidir.

Azərbaycan Respublikasının Prezidentinin katibliyi tərəfindən hazırlanmış iki hissədən ibarət iri həcmli kitab müasir dövrdə Azərbaycan dövlətinin neft strategiyasını dərk etmək baxımından əhəmiyyətlidir[81].

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin iri həcmli monoqrafiyası problemi öyrənməkdə mühüm əhəmiyyətə malikdir[82]. Zəngin arxiv materialları və digər sənədli mənbələr əsasında yazılmış kitabda Xəzər bölgəsinin qədim zamanlardan müasir günlərə qədər siyasi və iqtisadi inkişafı dərindən araşdırılmışdır.

Monoqrafiya yazılarkən Azərbaycan qəzet və jurnallarının materiallarından geniş istifadə olunmuşdur. Dövri mətbuat materialları içərisində "Азербайджан" qəzetində verilmiş məlumatlar və məqalələr əhəmiyyətlidir. Qəzetin müxtəlif saylarında Azər-

---

80 Əliyev H.Ə. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I cild. Bakı, Şuşa nəşriyyatı, 1996; II cild (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1995-1996-cı illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). Bakı, ABU nəşriyyatı, 1997; III cild (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). Bakı, ABU nəşriyyatı, 1998; IV cild (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). Bakı, ABU nəşriyyatı, 1999.

81 Heydər Əliyevin neft strategiyası Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə; II hissə. Bakı, Nurol Printing And Packaging industry Inc., 2001.

82 Алиев И. Каспийская нефть Азербайджана. М., Известия, 2003.

baycan neftinin beynəlxalq münasibətlərdə tutduğu yerə dair çoxlu yazılar dərc olunmuşdur.

Bakı neft sənayeçiləri qurultayı şurasının nəşri olan "Neftyanoe delo" jurnalında dərc olunmuş məqalələrdən və materiallardan istifadə edilmişdir[83].

1918-ci ilin yayından başlayaraq neft uğrunda mübarizənin kəskinləşməsini, Azərbaycan nefti üstündə alman-türk ixtilaflarını öyrənmək üçün dəyərli mənbələrdən biri də Rusiyanın xarici siyasətinə dair sənədlərin toplandığı külliyyatdır. Bu sənədlər Azərbaycan neftinin beynəlxalq münasibətlərdə mühüm rol oynadığını göstərir. Sovet dövlətinin xarici dövlətlərlə bağladığı müqavilə və notalarının toplandığı sənədlər külliyyatları problemi araşdırmaq üçün qiymətli mənbədir[84,85,86]. Bu külliyyatlarda Azərbaycan nefti uğrunda aparılan mübarizəyə dair çoxlu materiallar vardır.

Problem araşdırılarkən gürcü mənbələrinə də müraciət edilmişdir. Cənubi Qafqazda baş verən prosesləri və böyük dövlətlərin Azərbaycan nefti uğrunda mübarizəsini öyrənmək üçün gürcü xadimlərinin xatirələri, məruzə və çıxışlarında getmiş mülahizələrin də müəyyən əhəmiyyəti vardır. Bu baxımdan N.N.Jordaniyanın dövrün hadisə və proseslərini əks etdirən məruzə və çıxışları xüsusilə maraqlıdır[87].

---

[83] «Нефтяное дело», 1918, №1-2; 11-12; 13-16; 17-26; 1919, №1-2; 3-4; 5-6; 7-8; 9-10; 11-12; 13-14; 15-16; 21-22; 1920, №3; 4 вя 6.

[84] Документы внешней политики СССР. Т. I. М., Госполитиздат, 1959.

[85] Документы внешней политики СССР. Т.2. М., Политиздат, 1960.

[86] Документы внешней политики СССР. Т.3. М., Политиздат, 1961.

[87] Жордания Н. Н. За два года (с 1 марта 1917 года по 1 марта 1919 года). Доклады и речи. Тифлис, Типография Грузинского правительства, 1919.

Tiflisdə nəşr edilmiş sənədlər məcmuəsində[88] Cənubi Qafqazda baş verən proseslər və o cümlədən, regionda maraqları olan dövlətlərin Azərbaycan siyasətində neftin təsiri və s. öz əksini tapmışdır.

Monoqrafiya yazılarkən Türkiyə arxivlərinin materiallarına diqqət verilmişdir. Osmanlı imperiyasının Azərbaycan siyasətində neftin tutduğu yerə dair materiallar Türkiyə Cümhuriyyəti Başbakanlıq Dövlət Arxivləri Baş müdirliyinin Osmanlı Arxivində vardır. Həmin materialların bir hissəsi artıq çap edilmişdir[89]. Burada Rusiya və Osmanlının Qafqaz siyasəti barədə sənədlər, Osmanlı ilə Azərbaycan və Gürcüstan cümhuriyyətləri arasında imzalanan digər sənədlər, Bakı-Batum kəməri ilə neftin nəqlinə dair müqavilə, imzalanan digər sənədlər, dostluq və əməkdaşlıq müqavilələri verilmişdir.

Monoqrafiya yazılarkən türk ictimai-siyasi və hərbi xadimlərinin xatirələrindən istifadə olunmuşdur. Osmanlı imperiyasında baş qərargah rəisi, sonra isə baş nazir olmuş Əhməd İzzət paşanın xatirələri[90], Əhməd Camal paşanın qeydləri[91], Rıza Nurun xatirələri[92] dünya müharibəsinin başlanması, Osmanlı imperiyasının ona

---

[88] Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, №8, 1919.

[89] Büyük Osmanlı Arşivi. Hariciye Hükuk Müşavirliği İştişare Odası, nr. 106/8-1,2. - Osmanlı Devleti ile Azərbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri. II (1575-1918). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, 1993.

[90] Ahmet Izzet Paşa. Feryadım. I c. Istanbul, Atlas ve Nehir iletişim A. S., 1992.

[91] Записки Джемаль-паши 1913-1919 гг. Пер. с англ. Б. Т. Руденис. С предисловием Сим. Такаева. Тифлис, изд. Заккрайкома РКП(б), 1923.

[92] Riza Nur. Milli Kiyam. Milli Mucadelerin iç yüzü. Hazırlayan Yalçın Toker. Istanbul, Toker Yayınları 1994, s.18-19.

qoşulması, 1920-ci ildən sonra Rusiya-Türkiyə münasibətlərində iqtisadi amilin roluna, Azərbaycan neftinə dair fikirlər vardır.

Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın xatirələrində Azərbaycan nefti uğrunda Osmanlı imperiyası ilə Almaniya arasında ixtilaflar da işıqlandırılmışdır[93].

Monoqrafiya yazılarkən Böyük Britaniyanın xarici siyasətinə dair sənəd və materiallardan istifadə olunmuşdur. 1917-1921-ci illərdə Böyük Britaniyanın Cənubi Qafqaz siyasətini öyrənmək üçün qiymətli mənbələrdən biri 1922-ci ildə Böyük Britaniya Xarici İşlər Nazirliyinin Cənubi Qafqazda baş verən hadisələr barədə tərtib etdiyi icmaldır. İcmalın müəyyən hissələri sovet tarix jurnallarında nəşr olunmuşdur. Ekspedisiya korpusunun generalı Corc Milnin "Böyük Britaniya müdafiə nazirliyinin Qara dəniz orduları baş komandanı, general, ser C.F.Milndən aldığı" Türkiyə ilə barışıq imzalandığı andan türk sülh müqaviləsi (1920-ci il 10 avqust) imzalanana qədər onun tabeliyində olan ordularıın hərəkəti barədə" adlı məruzəsi Böyük Britaniyanın Azərbaycan neftinə dair siyasətini öyrənməkdə əhəmiyyətlidir. Məruzə 1921-ci il yanvarın 4-də "London qəzeti"nin dördüncü əlavəsində nəşr edilmişdir[94]. Burada Qafqazda və Xəzər ətrafında cərəyan edən hərbi-siyasi proseslər, ingilis ordularının qarşısında duran ümumi siyasi vəzifələr, rus ordularının çıxarılması, Azərbaycan neft sənayesinin vəziyyəti, idarə olunması və neft boru kəmərinin işləməsi, Xəzər dənizində ingilislərin hökmranlığı, Bakının işğalı və bir sıra başqa məsələlər şərh edilmişdir. Məruzədən aydın olur ki, Azərbaycan barəsində Böyük Britaniyanın başlıca məqsədi neftə

---

[93] Nuru Paşa. Qafqaz Islam Ordusu hərəkatı. I hissə. II hissə. Mülki sahədə. Bakı, Hərbi nəsriyyat, 1999, s.123-141.

[94] О событиях на Кавказе и в Средней Азии. Донесение генерала Джорджа Мильна // Гумилев Л. Каспийский транзит. В 2-х томах Т. 2. М., Ди-Дик, 1996, с.310-346.

sahib olmaq, Xəzər dənizi üzərində nəzarəti ələ keçirmək və Mərkəzi Asiyaya gedən yolu tutmaq olmuşdur.

Monoqrafiyada 1918-ci ildən 1922-ci ilədək Azərbaycanda baş vermiş hadisələrə, ingilislərin neft maraqlarına dair Böyük Britaniya Xarici İşlər Nazirliyinin arxivinin materiallarından[95] istifadə edilmişdir[96].

Monoqrafiya yazılarkən Böyük Britaniya xatirə ədəbiyyatından istifadə edilmişdir. Böyük Britaniyanın siyasi, dövlət və hərb xadimlərinin xatirələri bu dövlətin Azərbaycanda neft maraqlarını öyrənmək baxımından əhəmiyyətlidir. Memuar ədəbiyyatı içərisində qiymətli mənbələrdən biri baş nazir işləmiş Lloyd Corcun dünya müharibəsinin yekununda imzalanmış sülh müqavilələrinə həsr edilmiş xatirələri[97] regionda maraqları olan dövlətlərin Yaxın və Orta Şərq, o cümlədən, Qafqaz siyasətini öyrənməyə, neftin beynəlxalq münasibətlərdə oynadığı rolu müəyyənləşdirməyə kömək edir.

Şimali İrandakı ingilis ordularının komandanı general-mayor L.Denstervilin xatirələri[98] Böyük Britaniyanın Azərbaycan nefti uğrunda apardığı hərbi əməliyyatları öyrənmək baxımından qiymətlidir. Müəllif 1917-ci ilin sonundan başlayaraq ingilislərin Ba-

---

95 Rublic Foreign Office. Foreign Office Papers, File 371/6280, dos. E 8378/8378/58. Outline of Events in Transcausasia from the Beginning of the Russian Revolution in Summer 1917 to Arril 1921).

96 Böyük Britaniya Xarici İşlər Nazirliyinin arxiv materiallarını prof. M.Qasımlı təqdim etmişdir.

97 Давид Ллойд Джордж. Правда о мирных договорах. Т. I, II. М., Изд. Иностранная литература, 1957.

98 Денстервиль Л. Британский империализм в Баку и Персии. 1917-1918. Воспоминания. Пер. с анг. Б. Руденис. Тифлис, Советский Кавказ, 1925.

kıya diqqət yetirmələrinin səbəbləri, məqsədləri və b. məsələləri izah edərək neftə yiyələnməyin əsas vəzifə olduğunu göstərir.

Monoqrafiya yazılarkən ABŞ xarici siyasət sənədlərindən[99] istifadə edilmişdir[100]. Bu sənədlərdə ABŞ-ın neft maraqları, AXC-nin tanınması, regiona dair siyasəti öz əksini tapmışdır.

Monoqrafiya yazılarkən alman mənbələrinə də diqqət yetirilmişdir. Türk ordusunda xidmət etmiş alman generallarının məruzələrində Osmanlı imperatorluğunun Cənubi Qafqaz siyasəti, Azərbaycan nefti uğrunda mübarizəsi, ona Almaniyanın münasibəti, habelə Almaniyanın Azərbaycanda iqtisadi maraqlarını öyrənmək üçün qiymətli materiallar vardır. Bu məruzələrdə Azərbaycanda neft məsələsində iki müttəfiq dövlət arasında yaranmış məsələlərə diqqət yetirilir[101]. Məruzələrdə 1918-ci ildən başlayaraq Osmanlı ilə Almaniya arasında Azərbaycan üstündə kəskin ixtilafların olduğu göstərilir. Generalların məruzələri Almaniyanın Azərbaycan neftinə böyük əhəmiyyət verdiyini, bundan ötrü hətta öz müttəfiqi olan Osmanlı imperiyasından xəbərsiz bolşevik Rusiyası ilə sövdələşməyə getdiyi də qeyd olunur.

Monoqrafiyada Almaniya xatirə ədəbiyyatından da istifadə olunmuşdur. Hərb xadimlərinin xatirələrində Almaniya və Osmanlı arasında Bakı nefti üstündə ixtilaflara dair bəzi məsələlər verilmişdir. Almaniya ordusunun zabiti, Osmanlı ordusunda xid-

---

[99] ABŞ xarici siyasət sənədlərini prof. M.Qasımlı təqdim etmişdir.

[100] Papers Relating to the Foreign Relations of the United States. 1918. Russia (in three volumes). Vol.I. Washington, U.S.Government Printing Office, 1931; 1918. Vol.II. Washington, U.S. Government Printing Office, 1932; Foreign Relations of the United States. The Lansing Papers. Vol.II. 1918. Washington, U.S.Government Printing Office, 1940.

[101] Birinci dünya savaşı sırasında Türkiye'de bulunan alman generallarının raporları. Ankara, Türk Kültürünü Araştırma Enstitüsü, 1966.

mət etmiş podpolkovnik Ernest Parakenin "1917-1918-ci illərdə Yaxın Şərq haqqında xatirələr"i əhəmiyyətlidir. O, Bakının azad edilməsi planının işlənib hazırlanmasında iştirak etmişdir. O, xatirələrində Qafqazda Osmanlı siyasətinə, xüsusən də 1918-ci il sentyabrın 15-də Bakının azad edilməsinə geniş yer ayırmışdır. Onun qeydinə görə, Bakının azad edilməsində neft amili mühüm rol oynamış, Almaniya ilə Osmanlı arasında ixtilaflar məhz Azərbaycan nefti üstündə baş vermişdir.

Almaniya ordusunun Şərq cəbhəsinin baş qərargah rəisi işləmiş E.Lüdendorfun xatirələri[102] 1918-ci ildə Cənubi Qafqaza və Azərbaycana dair məsələləri, baş verən hadisələri öyrənmək baxımından qiymətlidir. O qeyd edir ki, Azərbaycan uğrunda döyüşən ölkələrin, həmçinin, Almaniyanın başlıca məqsədi əsasən Bakı neftinə yiyələnmək və əlverişli hərbi-starteji mövqeləri ələ keçirmək idi. Lüdendorf yazır ki, Qafqazda Almaniyanın məqsədi ərazi tutmaq deyil, neftə, xammala və müharibədə əlavə insan ehtiyatına sahib olmaq idi. Xatirələrdə Qafqazda alman-türk ziddiyyətləri və eyni zamanda, türklərin Bakıya girməməsi üçün Bakı neftinin dörddə birinin almanlara verilməsinə nail olmaq niyyətilə bolşevik Rusiyası ilə sövdələşmənin məqsədləri izah olunur. Xatirələr Azərbaycan nefti uğrunda gedən mübarizəni öyrənmək üçün əhəmiyyətlidir.

Bütün bunlar göstərir ki, 1918-1920-ci illərdə Azərbaycan nefti məsələsinin beynəlxalq münasibətlərdə tutduğu yeri öyrənmək elmi və siyasi baxımdan əhəmiyyətlidir. Ona görə də monoqrafiyada konkret olaraq aşağıdakı məsələlərin araşdırılmasına cəhd edilmişdir:

---

[102] Людендорф Е. Мои воспоминания о войне 1914-1918 гг. Пер. с нем. Т. II. М., Госиздат, 1924.

- Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından birinci dünya müharibəsinin sonlarınadək beynəlxalq münasibətlərdə Bakı neftinin yerini və onun uğrunda aparılan mubarizəni öyrənmək;

- 1918-ci ilin axırlarından 1920-ci ilin aprelinədək olan dövrdə beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələsini təhlil etmək.

Artıq qeyd edildiyi kimi, neftin beynəlxalq münasibətlərdə tutduğu yerin dövrlərindən biri Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdir. AXC elan edildikdən sonra ingilislər, osmanlılar və almanlar Bakı neftinə can atmışlar. 1918-ci il iyulun sonunadək bolşeviklər Bakı neft mənbələrini əldən verməmək üçün döyüşmüşlər. Bu müddətdə Bakı Soveti iflasa uğramış, neftə ingilislər sahib olmuş, sentyabr ayında Bakı azad edilmiş, Osmanlı imperiyası məğlub olduqdan sonra Bakı neft rayonuna yenidən ingilislər yiyələnmişdilər. 1918-1920-ci illərdə Azərbaycan neftinə və onun daşınmasına dair Azərbaycan hökuməti ilə Osmanlı və Böyük Britaniya arasında bir sıra sənədlər imzalanmışdır. Bütün bu məsələlərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.